# Bahtiyar Vahapzade Poeziyasında İnsan Konsepsiyası

Vurğun EYYUB*

ÖZ

Çağdaş insan, Türk dünyasının büyük şairi B. Vahabzade'nin şiirinde insan konsepti, zaman, dünya, milli ve beşeri değerler ideolojiler ve özgürlük bağlamında ele alınmıştır. Şairin "Ölüm", "Hayat", "İtiraf", "Şeb-i Hicran", "Makam" poemlerinde ve yüzlerce şiirinde hayat ve ölüm, özgürlük uğruna, vatan namına şehitlik insanın manevi-psikoloji dünyasında yaşanan duygu ve düşünce zenginliği tezatlarla dolu çağdaş dünya insanının beşeri borçları, sorumlulukları dile getirilmiştir. Eski Sovyet ideolojisini insanın dünyasını hudutlayan ezen zincirleri şairin tenkit adeti olmuştur. Şair, insan hakkının herşeyden yüce olduğunu beyan etmiştir. B. Vahabzade'nin şiirleri, yalnız Türk İslam Dünyası için değil tüm insanlık için yüksek değer taşıyan ehemmiyetli sanat örnekleridir.

*Anahtar Kelimeler:* Bahtiyar Vahapzade, vatan, insan, özgürlük, düşünce, liyakat.

ABSTRACT

**The Concept of Human in Vahabzade's Poetry**

In his poetry Bakhtiyar Vahapzade, the great poet of the Turkic world deals with modern human being within the context of time, earth, national and human values, ideologies and freedom. In his poems such as "Death", "Life", "Seb-i Hicran", "Maqam" and in hundreds of others, such matters as life and death, martyrdom for the sake of freedom and country, richness of emotions and thoughts in human's psychological world, and the obligations and responsibilities of the human with the contradictions in the contemporary world were the issues that Bakhtiyar Vahapzade dealt with. He customarily criticized the chains of the old Soviet ideology that limit and oppress the world of the human being. The poet declared that human rights are superior than anything. Bahtiyar Vahabzade's poems are invaluable, important examples of art not only for Turkish-Islamic World but also for the whole humanity.

*Key Words:* Bakhtiyar Vahapzade, homeland, humanbeing, freedom, thought, merit.

* Doç. Dr., Hazar Üniversitesi Öğretim Üyesi, BAKÜ, e-posta: vurguneyyub@hotmail.com.

Güçlü poetik ilhamı, vatanperverlik, humanizm ideyaları, keskin vetendaşlıg cesareti ve mövgeyi ile tekce Türk halglarının deyil, birçok ölke okucularının sevimlisine çevrilmiş Bahtiyar Vahabzade poeziyası felsefi yönümü, insan ve insanlıg barede düşünceleri, derin ve mürekkeb suallara bedii cavabları ile daima diggeti celb etmişdir. Hele ilk gelem mehsullarından onun lirikasında bedii-felsefi düşüncelere meyl açık-aydın sezilirdi. Hemin şerlerde biz şairin klassik Şerg edebiyyatında geniş yayılmış insan-zaman, ölüm-heyat, ebediyyet-yoklug kimi mövzu ve motivlere meyl etdiyini görürük. Şairin bedii düşünce ve melumat üfügleri genişlendikce, heyat hegigetlerine nüfuz etmesi derinleşdikce bu meyl onun yaradıcılığında aparıcı bir temayüle çevrilmeye başlayır. Getdikce güclenen bu temayülün kökleri bir terefden Azerbaycan folklorundan, diger terefden ise klassik poeziyamızın Nizami, Nesimi, Füzuli kimi nümayendelerinin yaradıcılığından gidalanırdı. Hüsusen S. Vurğun yaradıcılığı ile yahın tanışlıgdan, bu böyük şairin bedii irsini araşdırdıgdan sonra (1954-cü ilde B. Vahabzade "S. Vurğunun lirikası" adlı elmi iş yazır ve elm sahesinde ilk ciddi addımını atır) onun yaradıcılığının felsefi mezmunu ve çekisi artmağa başlayır. S. Vurğun yaradıcılığında esaslı yer tutan insan taleyi barede sosial-felsefi bedii düşünceler Vahabzade yaradıcılığına da böyük ölçüde tesir gösterir. Vahtı ile edebi-tengid bu ceheti onun yaradıcılığında görüb geyd etmişdir: "Bahtiyar şerindeki bedii ideyanın poetik ifadesini güdretli S. Vurğun poeziyasının dalğalarından gopub gelen eks-seda adlandırsag, zennimce, B. Vahabzadenin semereli ve gergin poetik ahtarışlarının ehemiyyetini azaltmış olmarıg." (Efendiyev 1976: 27).

Mövzu, mezmun ve ideyalar bahımından heyli derecede zengin olan Bahtiyar Vahabzade yaradıcılığından bizi helelik onun insan barede poetik düşünceleri maraglandırır. Melumdur ki, insan övladı özünü, onu ehate eden etraf alemi anlayan, düşünen günden öz varlığı, özü ile etraf alem arasında olan elage, dünyaya münasibet, heyatın megsedi, hoşbehtlik kimi meseleler haggında fikirleşir, garşısına çıkan suallara cavablar ahtarır. İnsan adlandırılan mehlug kimdir? O kainatda, öz hemcinsleri arasında ne kimi yer tutur? İnsanı ferdden şehsiyyete geder ucaldan keyfiyyetler hansılardır? Bu suallar B. Vahabzadenin lirik gehremanını da daima düşündüren, cavablarını tapmag istediyi suallardır. Eslinde hansı mövzuya el atsa da, onu bir şair-filosof kimi birinci növbede yahşı işleri ile melekden üstün, nefsine, tamahına gul olmagla Şeytana eyilen İnsan, onun emelleri, arzuları, yaşamı, taleyi düşündürmüşdür. Gedim dünya müdriklerinden tutmuş bu günkülere geder bütün filosofları düşündüren "İnsan nece yaşamalıdır?" sualına şairin öz cavabları vardır. Tebii ki, bu cavablar elmi kategoriyalarla yoh, bedii ob-

razlarla ifade olunmuşdur. “Yaşamag yanmagdır, yanasan gerek” fikrini özüne heyat ve fealiyyet idealı seçmiş B. Vahabzadenin poeziyasında insanın garşısına goyulan vezifeler gısaca olarag bele ifade edilmişdir: insan zamanın yaddaşında menalı iz burahan, dünyanın taleyinden narahat, heyirhah, humanist duyğularla zengin bir ömür yaşamalı, yalandan, haramdan, biganelikden uzag durmalı, insanlara gerek olmağı bacarmalı, her anın, her degigenin gedrini bilmelidir.

Tebiet insana iki el verib,
Kiminse elinden tutub galdırag.
Bize emel üçün bir ağıl verib,
Çayların üstünden körpüler gurag.
Anamız, atamız bize dil verib,
Darda çırpınanın halını sorag. (Vahabzade 1987: 19)

B. Vahabzade’nin estetik idealı ömrün menasını duyan, hessas düşünen, özünü milletin, beşeriyyetin bir hissesi kimi derk eden, hetta ölümü ile de öz ömrünü menalandıran bir insandır. Şair özüne de, etrafındakılara da mehz bu idealın işığında giymet verir, şerefli ömrü insan varlığının tesdigi sanır. Bu bahımdan onun “Heyat-ölüm” poeması digget çekir. Eserin aparıcı hettini ölümü ile ölümün özünü de öldüren şerefli insan ömrünün heçlikden ferglenmeyen, işıgsız, idealsız, menasız heyatla üz-üze goyulması teşkil edir. Bütün eser boyu iki ölüm - şerefli ve şerefsiz ölüm - tezad şekilinde garşılaşdırılır ve birincinin heyatın davamı olması, ikincinin heyatın inkarı olması tesdig edilir.

Ölüm-dehşetdir! Ancag
Şerefli ölüm geder
Seadet yoh dünyada.
Biz her ölümden deyil,
Bir şerefsiz ölümden
Çoh gorhurug dünyada. (Vahabzade 2002, cild III: 343)

İnsanın mürekkeb dahili alemi, tezadlarla dolu yaşamı şairi rengareng suallar garşısında goyur, mühtelif bedii düşüncelerinin ortaya çıhmasına sebeb olur. Mehz bu suallara cavab ahtarışlarından şairin insan konsepsiyası doğulur. B. Vahabzadenin bedii genaetine göre insan malik olduğu güsurlardan, şer emellerden yaha gurtarmag üçün birinci növbede etirafı bacarmalıdır. Yaşamını, emellerini götür-goy edib, özüne, halga, Tanrıya hesabat vere bilen, etiraf etmeyi bacaran insan dahilen durulur, menen temizlenir, hagga govuşa bilir. B. Vahabzadenin yaradıcılığından gırmızı bir hett olarag keçen etiraf duyğusu onun “Etiraf” adlı poemasında bütün dolğunluğu ile üze çıhır, bütöv ve tekmil bir konsepsiya şeklini alır. Eserin gehremanı narahat, tezadlı hadiselere, suallara cavab tapmag isteyen bir insandır.

Bilek, bu dünyada dünya yaradan,
Ömürler dünyanı niye terk edir?
Göyleri, yerleri derk eden insan
Bes niye özünü çetin derk edir?
İnsan gah guş olur, gah od, gah da su;
Gah sevinir, gah da peşiman olur.
Bir anın içinde gah sakit guzu,
Gah da çalhalanan bir ümman olur.
Bir rengde deyildir insan tebieti
Guzuyken gefleten o dönür şire.
Bu gücü, hüneri, bu cesareti
İnsan hardan alır bes birden-bire? (Vahabzade 2002, cild III: 113)

Haglı ve beşeriyyeti zaman-zaman düşündüren suallardır. Eserde insanın ikileşmesi, bir ürekde iki mühtelif hissin, düşüncenin çarpazlaşması, neticede etiraflarla durulan, temizlenen, yüksek beşeri deyerlerle zenginleşen insan meneviyyatının gelebesi terennüm olunur.

B. Vahabzade insan idealı barede düşüncelerini insan-zaman, insan-tebiet, insan-mehebbet, insan-halg, insan-cemiyyet elage ve müstevilerinde eks etdirir. Bu müstevilerde meydana çıkan davranış ve münasibetler insanın mürekkeb dahili alemini açmag, özünün insan idealını ohucuya tegdim etmek üçün şaire imkan yaradır. O, nikbin bir ümidle inanır ki:

Her yerde insandır insan her zaman,
Onun min gemi var, min sevinci var.
İnsanı çıharmır insanlığından
Dinler, egideler, diller ve yollar. (Vahabzade 2002, cild III: 37)

B. Vahabzade poeziyasında insan taleyi zamanla hemaheng olarag götürülür. İnsan ve zaman problemi, zamanla bağlı düşünceler şairin yaradıcılığında "İnsan ve zaman" başlıglı şerler silsilesi adı altında bütün yaradıcılığı boyu davam etmiş, hetta 1964-cü ilde çap olunmuş bir kitabı da "İnsan ve zaman" adlanmışdır. Şairin "Sen tökülen kalıma bah", dostu Hudu Memmedovun hatiresine hesr etdiyi "Çoh imiş", "Menden hebersiz", "Ademden evvel" ve onlarla başga şerlerinde ömrün mühtelif fesillerine, min illerdir insanları düşündüren "evvel-ahır", "ilk-son", varlığın heyat-ölüm ve zaman adlı ebedi problemlerine poetik-felsefi bahış ifade olunur. Şairin terennüm etdiyi, nümune gösterdiyi insan hansı bir dövrde, hansı zamanda yaşamasından asılı olmayarag halg üçün yaşamalı, onun yolunda ölümden bele çekinmemelidir.

İşıgsız, gapalı bir göz, de gözmü?
Yaşamaz sünbülden düşen den ayrı...
Halgın zerresiyem...heç gördünüzmü
Bir zerre yaşasın kütleden ayrı? (Vahabzade 1987: 14)

Daima mensub olduğu halgının gayğıları ile yaşamag, onun azadlığı hesretile alışıb-yanmag, halgın taleyini şehsi taleyinden uca tutmag Bahtiyar poeziyasının cövherini teşkil edir. Şairin düşüncesine göre ("Semender", "Ana dili", "Vekil etdi meni", "Layigemmi men?", "Hatalı yuhu", "Özünü hamıya borclu sayanlar" ve başga şerlerinde), halgı ile birge olmayana, özgelerin derdine şerik çıhmayanlara insan demek olmaz, "halga arha çevirenlerin arhası hemişe yerde süründü." Şair geti şekilde inanırdı ki, "Azadlıg olmayan bir memleketde, insanlar yaşayar, insanlıg olmaz!" O, "neyin bahasına olursa-olsun yaşayanları", yalnız özünü, öz rifahını düşünenleri "yaşarken ölü" hesab edir. Mehz bu hüsusiyyetlerine göre B. Vahabzade azadlıg uğrunda mübarizlerin yeni neslinin terbiyesinde, formalaşmasında evezsiz hidmeti olan az sayda gelem sahiblerinden biridir. 20-ci esrin sonlarında yeniden canlanan milli istiglal herekatında onun imzasının hüsusi yeri vardır. Şairin yaradıcılığının bu cehetini doğru olarag seciyyelendiren professor Kamil Veli Nerimanoğlu şaire müracietle yazmışdı:

> "Sizin milletimize, tarihimize, ana dilimize saf ve semimi vurğunluğunuz böyük bir idealın, milli ideologiyanın temel daşlarından biri oldu. Milli haggına govuşmayan insan haggına govuşa bilmez. Milli deyerlerini müdafie etmeyen halg liberal-demokratik deyerlerini müdafie ede bilmez. Sizin şerlerinizin ana hetti bu idi." (2002: 143)

B. Vahabzade'nin lirik gehremanı zamanın, elmi-tehniki teregginin getirdiyi nailiyyetleri deyerlendirmekle yanaşı, bu inkişafın dünyamız, beşeriyyet üçün törede bileceyi tehlükeleri de görür, semimi bir narahatlıg hissleri keçirir. "Dayan, insan!", "Eksponat adam", "Esger-şair", "Terk-silah", "Bir geminin yolçusuyug", "Barıt gohusu var" ve onlarla şeir hemin narahatlığın mehsulu kimi ortaya çıhmışdır. Dünyamızı hedeleyen ölümsaçan silahların dehşetini şair birinci növbede insanların ehlagında, meneviyyatında ahtarır, onların leğvi üçün beyinlerdeki hebis fikirlerin, üreklerdeki kin-küduretin, menem-menemliyin aradan galdırılmasını zeruri bilir. Bir mesuliyyetsiz insan barmağının bombaların düymesine basılması ile bütün insanlığın tehlüke garşısında galacağını bilen şair tehlükede olan Yer adlı geminin batmag tehlükesi garşısında hemin geminin yolçularının bir-birine diş gıcamasının dehşetli olduğu geder de gülünc olduğunu söyleyir. "Ey! Dayanın, ses salmayın, körpelerin yuhusu var" deye haygıran şair insanların zor diliyle danışmasını insanlığa zidd hesab edir. Bu bahımdan B. Vahabzadenin "Feryad" adlı şeri çoh seciyyevidir. Vezuvi vulkanın püskürmesinden sonra mehv olmuş gedim Pompeyin bir anını daşlar üzerinde ebedileşdirmiş heykel garşısında düşünceleri onu bu fikre getirir ki, "her şeye gadir insan" tebietle üz-üze gelib min imtahanla garşılaşanda yene galib olur, öz feryadını, gezebini daşlara hekk etmekle tebiet ve ölüm üzerinde gelebe çalır. Lakin şair bu

fikirde dayanıb galmır, bu gelebeye çoh da sevinmir. Vulkanın töretdiyi dehşetleri eks etdiren daş lövheler onun fikrini daha uzaglara çekir. Bu düşüncelerden insanın mesuliyyet hissi barede genaetler doğulur:

Tebietden güclüdür
İnsan ezelden beri.
Pompeyin birden-bire
Batmasına bahma sen.
Tebietin gezebi
Mehv etdi bu şeheri,
Dünya dağıla biler
İnsanın gezebinden.
İnsan öz gezebiyle
İnsanlığın kökünü
Kese biler dünyadan (Vahabzade 2002, cild III: 37)

Dünyanın özünü batıracag insan gezebinden gorhan şairi düşündüren budur ki, süretle silahlanan bu dünya dağılanda insan da mehv olacag, dağılmış dünyanın derdine "bir nefer galacagmı dağılmış yer üzerinde?" Şairin bu narahatlığında hemin dövrün sovet ideologiyasından ireli gelen bir temayül sezilse de, dünyamızın taleyinden doğan semimi nigaranlıg hissleri daha gabarıgdır. Selefleri Azerbaycan romantikleri kimi şair de bu günün dehşetlerini gördükce keçmişi ideallaşdırmag hettine üz tutur. Şair semimi şekilde boynuna alır ki:

Bu gün-cehennemim, dünen cennetim,
Sazım zemaneye dem tuta bilmir.
Tutmur nevelerle sözüm, söhbetim,
Yaddaşım düneni unuda bilmir. (Vahabzade 2002, cild VI: 468)

B. Vahabzade yaradıcılığında dünen, bu gün, gelecek anlayışları insan-zaman konteksinde nezerden keçirilir. Tekce zamanın, vahtın elinde gücsüz olduğunu ("Vaht" şeri) deyen şairin nezerinde insan vahta gelebe çalmag isteyirse, düneninden güc alıb sabahını düşünmelidir. Mehz sabah üçün yaşayanlar esl insan idealına yahınlaşa bilirler.

Keçire bil dolaylardan
Eyilmeden öz "men"ini.
Günahını anlamagçın
Yadına sal dünenini.
Leyagetle yaşamagçın
Düşün yalnız sabahını. (Vahabzade 2004, cild VII: 147)

Leyagetle yaşaya bilmek B. Vahabzadenin idealı olan insanın en esas keyfiyyetlerinden biridir. Çünki ferd leyaget hissine yiyelenmeden şehsiyyete çevrile bilmez. Öz leyagetini tamahına gurban verenleri "ağlı medesinden hırda gedeler" adlandıran şair leyaget hissini beşerin özünü insan kimi derk etmesinde en mühüm deyer kimi seciyyelendirir.

İnsan getre-getre insanileşdi
Yalnız öz insan leyagetile...
Gazandıg bu adı biz gile-gile.
İndi leyagetle gazandığımız
İnsanlıg adını itirekmi biz? (Vahabzade 1987: 27)

Şair bu mövzuda bir çoh lirik şerler yazmagla beraber "Leyaget" adlı poema da geleme almışdır. Eserde oğurlug üstünde hagsız yere ittiham olunan 13 yaşlı bir uşağın dövresindeki adamların biganeliyine, edaletsizliyine, heysiyyetinin tapdanmasına etiraz olarag, öz leyagetini gorumag üçün intihar etmesini şair leyaget hissinin tentenesi kimi geleme alır.

Onun leyageti tapdanmış bu gün,
Bu itki ölümden betermiş ona.
Saşa leyageti gaytarmag üçün
Adını doğrultdu can bahasına. (Vahabzade 1987: 125)

B. Vahabzadenin lirik gehremanı hadiselere, varlıglara, mövgelere bir rengli, bir hetli ve bir menalı bahmır. O, her şeyi bütöv şekilde derk etmeye cehd edir, bütün zidd anlamları, tezadlı halları bir tamlıg, bütövlük içerisinde görerek onların içerisinden öz idealını tesdig edir. Adi, birterefli ağıl ucalıg anlayışında yalnız ülviyyeti görür. Lakin B. Vahabzade istedadı ve ağlı başı buluda deyen ağacda ucalıg ülviyyeti gördüyü kimi, tenhalıg, teklik faciesi ve ezabını da duyur ("Ucalıgda tenhalıg" şeri). Sözsüz ki, şairin bu uca ve tenha ağacında insan obrazını görmemek mümkün deyil. "Gah şerbet içen, gah da zeher udan", "gülüşle göz yaşının arasında oynayan" insanı "bir saat reggasına" benzetmekde ustad şair ne geder haglıdır! Şair bilir ki, insan tebietinde bu ziddiyyetler bir-birine govuşug şeklindedir. Bu yerde o, selefi Nesimi ile birleşir:

Dünya da menem, gor da menem, men,
Şadlıg da menem, gem de menem, men.
Mehrab da menem, secde eden de,
Dünya özü eksiyle de vehdetdedi mende.
Neşem de doğur derdi-gemimden,
Ziddimde tamam, bir bütövem men. (Vahabzade 2002, cild V: 113)

Vahabzadenin poeziyasındakı felsefi düşünceler öz gaynağını tekce klassik felsefi menbelerden almır, hem de bu günün en müasir felsefi-riyazi keşfleri ile sesleşir. Bu sesleşme de alimlerimizin diggetinden gaçmamışdır. Geyriselis mentig (bulanıg mentig) nezeriyyesi ile şairin felsefi düşüncelerinin ohşar cehetleri barede dahi Lütfi Zadenin telebesi, dünya şöhretli alimimiz professor Rafig Eliyev yazır:

"Bahtiyar Vahabzadenin poetik tefekkür medeniyyeti, intehasız felsefi düşünce derinliyi onun bütün şeirlerinin, poemalarının, piyeslerinin ve publisistik yazılarının mayasına hopmuşdur. Bu felsefi tefekkür ter-

zi, onun mentigi postulatları ve çıharışları Aristotel mentigine sığmayan, dünyanı bütün çalarları ile eks etdiren bir felsefi tefekkür terzidir. Men özümü çoh hoşbeht sayıram ki, menim iki dahi dostum Bahtiyar Vahabzade ve Lütfi Zade eyni şerg gan yaddaşına söykenerek dünyanın kesilmezlik felsefesine, mentigine imza atmışlar. Biri poetik felsefi tefekkür terzinden, o birisi elmin derinliklerine cesaretle temas ederek analitik tehlil terzinden behrelenerek." (Aliyev 2010)

Yeri gelmişken deyek ki, felsefe ve poeziyanın tesirleri her zaman garşılıglı olmuşdur. Yalnız felsefenin poeziyaya tesir etdiyini düşünenler sehve yol verirler. Meselen, gedim yunan felsefesindeki rasionalizm klassik Avropa edebiyyatının özülünü teşkil etmişse, orta çağların sufi poeziyası da Şerg felsefesinin inkişafına güclü tesir göstermişdir. Bu bahımdan B. Vahabzade yaradıcılığının müasir felsefi fikre tesiri meselesi öz tedgigatçısını gözlemekdedir.

Suallar, tezadlar B. Vahabzade yaradıcılığında fikrin bedii ifade vasitesi kimi oldugca fealdır, kemiyyet etibarile çohlug teşkil edir. İnsan tebietindeki, dünyada, kainatda olan bir çoh problemleri, nagislikleri şair suallar, üzüze dayanan tezadlarla aydınlaşdırmağa çalışır, onların vasitesile ohucunun diggetini esl insan idealına yöneldir. Filosoflar yazır ki: "Adi, gündelik şüur insanda derin gizlinlerin olmasını az ağlına getirir. Gündelik şüurunda insan özünde de az gizli görür. Ona ele gelir ki, içinde ne varsa, hamısı onun özüne aydındır. Ancag yeter ki, insan dünyasına hüsusi suallar veresen ve bu vaht heyli sirlerin olması ortaya çıhar." (Mehdi Dilare ve Mehdi Niyazi, 2005: 94)

B. Vahabzadenin bir çoh eserleri kimi "Guran bele gurub" şeiri de şairin iztirablı düşüncelerinin, ümidli aldanışlarının, cavabsız suallarının neticesi kimi ortaya çıhmışdır. Şeirden doğulan genaet budur ki, inkişaf, ingilablar, üsyanlar, etirazlar dünyada heç neyi deyişe bilmemişdir. İnsan ilk yaranışından bu güne geder ziddiyyetler içerisinde vurnuhur, öz dahilindeki şerden azad ola bilmir:

Gısganıb, gısganır insan insanı
Nefsimiz hemişe gana teşnedir.
Habilin tökdüyü o gardaş ganı
Yene de tökülür...Deyişen nedir?
Bize ağıl verdi, ruh verdi Allah
Mügeddes kitablar gönderdi Allah
Bizi hagg yoluna getirsin deye.
Geldikmi yola? Gelmedik niye?
Niyeni ahtardım, tapmadım neden?
Yüz-yüz niye doğdu birce niyeden.
İndi asılmışam suallarımdan
Dünya o dünyadır, insan o insan. (Vahabzade 2004, cild VII: 115)

B. Vahabzaden yaradıcılığında dünyanı ve özünüderk vasitesi kimi tezad ve suallar çoh zaman özünü doğrultsa da, bezi hallarda onlara geniş yer verilmesi bedii fikrin inkişafını lengidir. Bu zaman ohucu da şairle birlikde hemin sual ve tezadların elinde girinc galır, çıhılmaz bir duruma düşür. Ohucunun gözünde şerin lirik gehremanı dünyanın hikmetlerini derk etmemiş sadelövh bir uşağa dönür.

Menim gan gardaşım, ey yazıg insan,
Sen niye bu geder ucuzlaşmısan?
Niye alçalmısan sen bu yaşında?
Dedende yoh idi, vallah, bu hislet.
Meger yohmu senin gan yaddaşında
Bir tike leyaget, bir damcı geyret?
Adına çevrilib sebrin, dözümün,
Ey insan övladı, insan övladı.
O geder alçalıb kiçildin, bu gün
Sende insanlıgdan eser galmadı. (Vahabzade 2002, cild VI: 452)

Yuharıdakı misralarda şairi narahat eden nagislikler, elbette, heyatidir, düşündürücüdür. Narahatlığın da ürekden geldiyine de heç bir şübhe yohdur. Ancag hamıya belli olan bu nagisliklerin sual şeklinde sadalanması, onların mahiyyetine bedii nüfuzun zeifliyi ohucunu gane etmir. Fikrin ifade formasında teze, gözlenilmez bedii obrazlar olmadığından ohucuda yeni düşünce işartıları yaranmır. Şairin başaglarından fergi o zaman ortaya çıhır ki, o teze, celbedici, düşündürücü obrazlar vasitesile ohucunu bu meselelerin gerekliliyine, helli üzerinde düşünmeye yönelde bilsin. Teessüf ki, böyük şairimiz bezen buna müveffeg olmur. Bu bahımdan "Bir tanrım bilir" şeri harakterikdir. Bu şeirde şair "yarpag pıçıltısı, yel vıyıltısı, yağış şırıltısı, göy gurultusu, guzu melertisi, at kişnertisi" ile yeni zamanın "metal cingiltisi, demir, mis sesi, gülle vıyıltısı, bomba neresi, motor uğultusu, çarh taggıltısı, maşının, geminin, gatarın fiti"ni garşılaşdırır. Birincilerin "temburlar, sazlar, neğmeler, şerler, sözler" yaratdığını gösterir, ikincilerin ise neler yaradacağını kesdire bilmir, bu cür mühüm sualların cavabını yalnız "Tanrım bilir" tesellisinin üzerine burahır. Şair zamanın nefesini duysa da, onu şerin predmetine, bedii derkine çevirmekde çetinlik çekir. Tezadlara aludeçilik öz fikirlerini, bedii genaetlerini tam ve uyğun halda ifade etmekde şaire mane olur. İnsan-zaman münasibetleri hedsiz derecede mürekkeb, süretli keçidlere malik bir elagedir. Yuharıda misal getirdiyimiz sadelövh suallarla, sıralanan tezadlarla hemin elageleri herterefli açmag ve ohucuda heyret yaratmag mümkün deyil. Heyret olmayan yerde ise poeziya elacsız insan durumuna düşür. Zaman insanın isteyinden asılı olmayarag daima hereketdedir, deyişkendir. Her zamanın öz poetikası, keçmişin öz gözellikleri olduğu kimi elmi-tehniki teregginin

de öz romantikası var. Bu romantika insanı ruhlandırır, onu yaşamağa, sabaha, ireliye bahmağa sövg edir. Şairin vezifesi hem de hemin mürekkeblikdeki poetikanı, romantikanı göstermek, açmagdır. Yohsa bele çıhır ki, insan gözel şerleri yalnız tehniki teregginin olmadığı zamanlarda yarada bilmişdir. Elbette ki, bu zamanın reallıglarına uyğun deyil. Bu kimi hallar az da olsa, B. Vahabzade yaradıcılığının bedii-felsefi mezmun yüküne helel getirmiş olur.

Yahşı ki, bu meyller şairin yaradıcılığında öteridir, keçicidir. Mence, B. Vahabzade poeziyası öz döyüşkenliyi, inam ve nikbinliyi, insanları daima ireliye bahmağa, kamilleşmeye çağırışları ile güvvetlidir, semimidir ve gereklidir. Aşağıdakı misralarda olduğu kimi:

Bir böyük amala vurulan zaman
Özünü yeniden yaradır insan.
O böyük amalın çağırış sesinde
Gayğılar eriyir, megsed doğulur.
Özünü yaratma mertebesinde
İnsan kamilleşir, şehsiyyet olur. (Vahabzade 2002, cild V: 151)

“Guş ganadla uçar, insan dilekle” deyen şair insan arzularının intehasızlığını, vetendaş amallarının mügeddesliyini poeziyanın bedii tedgigatına çevirende daha güclüdür. B. Vahabzade yaradıcılığının bu hüsusiyyetini gören tengidçi Yaşar Garayev yazırdı: “Şair serhedsiz dünya ve ömür hakkında fikirleşir. İnsan kamalı yeni hüdudlar feth etdikce süret çohalır, zaman lengiyir, kainat böyüyür ve genişlenir. Bahtiyar şerinin ümid ve inam pafosu bu yüksek felsefi nikbinlikden doğur. Serhedsiz dünya yaradan insana şair serhedsiz de ömür ve emel arzulayır:

Men sahili olmayan denizler isteyirem,
Men ahşamı olmayan gündüzler isteyirem” (Garayev 2002: 9)

B. Vahabzade yaradıcılığında insan konsepsiyası hedsiz derecede geniş ve ehateli bir mövzudur. Onu bütün terefleri ile birlikde açmag megalemizin imkanları haricindedir. Buraya geder dediklerimizi ümumileşdirsek, fikrimce, şairin esl İnsan idealının esas cizgilerini cızmış olarıg. Bu İnsan ferdi, subyektiv duyğularını böyük, ictimai arzularla, milli ve beşeri duyğularla vehdetde götüre bilen, vügar ve metanetden yoğurulmuş şehsiyyetdir. Hem de mürekkeb, elvan, tezadlı duyğular aleminde yaşayan, mühteliflik seciyyesine malik bir insandır. İnsan ömrünün gısalığı ve insan arzularının sonsuzluğu, tebietle cemiyyet, inkişafla ehlag arasındakı konfiliktler onun tebietine yahşı menada narahatlıg getirir. Eyni zamanda o, fedakar, temennasız adamdır. Ustad şairimizin ohucularına tegdim etmek istediyi ideal İnsan dünyanın kederini, ümidini, sevincini öz gelbinde daşıyan, heyatın adi, zahiren cüzi görünen megamlarının şeriyyetini duyan, derk eden humanist şehsiyyetdir. Zemanemizin bu cür İnsana ehtiyacı heç kesde şübhe doğurmur.

## Kaynaklar

Aliyev, Rafig (2010, 13 fevral), "Çokölçülü Bahtiyar zirvesi", *Tezadlar Gazeti*, Bakı.

Efendiyev, Asif (1976), *Müdriklik Selahiyyeti*, Genclik neşrıyatı, Bakı.

Garayev, Yaşar (2002), *Düşündüren Poeziya* (Ön söz) *Vahabzade Bahtiyar, Eserleri*. IV. cild, Çaşıoğlu neşrıyatı, Bakı.

Mehdi, Dilare; Mehdi, Niyazi (2005), *Felsefe Tarihinde Felsefe*, Ganun neşrıyatı, Bakı.

Nerimanoğlu, Kamil Veli (2002), *Yorulsag da, yolumuzdan dönmemişik, Türk dünyasının Bahtiyarı* (megaleler toplusu), I hisse, Tefekkür neşrıyatı, Bakı.

Vahabzade, Bahtiyar (1987), *Ahı dünya fırlanır: şeirler, poemalar, tercümeler*, Yazıçı neşrıyatı, Bakı.

Vahabzade, Bahtiyar (2002), *Eserleri*. III cild, Çaşıoğlu neşrıyatı, Bakı.

Vahabzade, Bahtiyar (2002), *Eserleri*. IV cild, Çaşıoğlu neşrıyatı, Bakı.

Vahabzade, Bahtiyar (2002), *Eserleri*. V cild, Çaşıoğlu neşrıyatı, Bakı.

Vahabzade, Bahtiyar (2002), *Eserleri*. VI cild, Çaşıoğlu neşrıyatı, Bakı.

Vahabzade, Bahtiyar (2004), *Eserleri*. VII cild, Çaşıoğlu neşrıyatı, Bakı.